*Publisistik düşüncələr: Ekoloji mühitimiz*

# BAKININ YAŞIL RƏNGİ, biz onu qorumalıyıq

*Hüseynbala MİRƏLƏMOV,*
*Milli Məclisin üzvü*

Bakının XX əsrin əvvəllərinə aid, lap elə sovet dövrünün 30-cu illərinə qədərki təbiətini göstərən kinoxronika lentlərindən görüntüləri hər birimiz gözümüzün önünə gətirə bilərik. Yaşıllıqlarsız, faytonların hərəkəti fonunda çadralarını az qala külək aparan qadınlar, toz-torpaq dumanında görünməz olan adamların vahiməli götüntüləri... Əgər belə demək mümkünsə, yüz illik zamanın fenomeni kimi bugünkü Bakının görüntülərini də gözlərimizin qabağına gətirə bilərik. Gözəl, gözoxşayan parklar, küçələrdə cərgələnən ağaclar, abad həyətlərdə ən gözəl istirahət mühitləri... bunlar bugünkü Bakının, bugünkü bakılıların əllərilə yaradılmış mənzərədir.

XX əsrin əvvəllərində yaradılmış, nisbətən çox kiçik ərazini əhatə edən Bakı bulvarı təkcə istirahət mərkəzi deyildi, həm də insanların mənəvi zövq mərkəzi idi. Hacı Zeynalabdin Tağıyevdən üzü bu yana bu şəhərdə missiyası, nüfuzu keçərli olan hər kəsin Bakı bulvarına qayğısı olub. Ulu Öndər Heydər Əliyev Bakı bulvarına həmişə xüsusi diqqət göstərib. Və etiraf etmək lazımdır ki, Bakı bulvarının indiki mənzərəsi - xüsusilə, Ağ şəhərdən az qala, Şıxova qədərki məsafəni ehtiva edən mənzərəsi Azərbaycan Resrublikasının Prezidenti möhtərəm İlham Əliyevin yaratdığı təbii tablo kimi tarixin yaddaşında yaşayacaq.

Bir vaxt Bakını Neapolla bənzərə çəkirdilər. İndi Bakı bulvarının möhtəşəmliyi, gözəllik əzəməti dünyanın nadir inciləri sırasındadır.

Bunlar Azərbaycan reallığının və əlbəttə, ilk növbədə Bakı reallığının mənzərəsidir. Azərbaycanda yaşıllıqların, flora və faunanın qorunması üçün mühüm dövlət tədbirlərinin görüldüyü hər birimizə məlumdur. Dövlət səviyyəsində qoruqların və yasaqlıqların sahəsi dəfələrlə genişləndirilib. Adicə bir yulğun ağacının da kəsilməsi qadağandır. Meşələrimizin mühafizəsi üçün hər il nə qədər vəsait ayrılır. Meşələr zəngin flora və faunanı əhatə edən ərazilərdən ibarətdir. Əgər biz yaşıllığı xüsusi həyati əhəmiyyət kimi qoruyuruqsa, onda hər hansı bir ağacın harada, necə bitməyindən asılı olmayaraq ona da qayğı göstərməyi bacarmalıyıq.

Konkret ərazi və dəqiq ünvan göstərmək istəmirəm, çünki belə konkret ünvan və əraziləri televiziya kanallarında tez-tez göstərirlər. Hansısa bir sahibkar ərazini zəbt etmək üçün ağacları gövdəsini soymaqla, onun dibinə beton tökməklə, zəhərli, kimyəvi maddələrdən istifadə etməklə qurutmağa çalışır.

Canlıya qəsd etmək cinayətdir. Hər hansı bir ağacı ümumi həyati zərurət olmadan kəsmək, məhv etmək niyə cinayət hesab olunmasın? Doğrudur, bu barədə müvafiq tədbirlər, cəzalar, cərimələr nəzərdə tutulur. Görünür, nəzərdə tutulanlar hələ də hər şeyi həll etmir. Bu barədə bir qədər ciddi düşünmək, daha ciddi vasitələrə əl atmaq gərəkdir.

Əgər istəmiriksə XX əsrin əvvəllərindəki küləklər təzədən bizi öz ağzına alıb mənəviyyatımızın boşluğuna aparsın, onda heç olmasa, indiyə qədərki mənzərəni qoruyub saxlamalıyıq. İnkar etmirəm, bir tərəfdən yeni parklar yaradılır, yeni ərazilərdə - bataqlıqlardan, quraqlıqlardan, nə bilim, daha nələrdən azad edilmiş ərazilərdə yaşıllıqlar salınır. Amma ayrı-ayrı məhəllələrdə illər boyu sadəcə yaşıllıq həvəskarı olan insanların zəhməti sayəsində göyərdilən, lap elə insan kimi boya-başa çatdırılan ağaclar nəyinsə qurbanı olur.

Son vaxtlar isə yeni bir problem yaranıb. Ayrı-ayrı məhəllələrin yaşıllıqları sudan məhrum edilib.

İnsan neçə gün su içməsə yaşaya bilər? Bəs ağac necə? Bütöv ayı, hətta bütöv yayı susuz qala bilərmi? Abşeron mühitinin ən xarakterik cəhətlərindən biri budur ki, yaşıllıq suvarılmasa, yaşıllığa qayğı göstərilməsə, nəinki bütün yayı, heç bir ay da öz donunu saxlaya bilməz.

Əgər belədirsə, Bakının ayrı-ayrı məhəllələrinə yaşıllığa görə nə üçün su verməyək?

Mənim Xətai rayonundan olan seçicilərim tez-tez bu barədə sorğular verib, cavab istəyirlər. Mən demirəm ki, su təsərrüfatına təzyiq göstərilsin. Amma olmazmı ki, bizim maliyyə strukturları Bakı şəhərinin ayrı-ayrı məhəllələrinə su verilməsi üçün müəyyən vəsait ayırsın.

Doğrudur, parklar, əsas küçələr boyu cərgələnmiş ağaclar şəhər rəhbərliyinin nəzarətindədir.

Yaşıl rəng Azərbaycan bayrağının üçüncü rəngidir. Mən bu rəngi həm də Azərbaycan təbiətinin rəmzi kimi görürəm. Əlbəttə, opponentlərimin bu rənglə bağlı mənim düşüncələrimə iradlarını da anlayıram. İdeoloji anlamdakı yaşıl rəngi həm də Azərbaycan təbiətinin - ekologiyasının rəngi kimi qavramağın nəyi pisdir. Bu gün Azərbaycanın demək olar ki, hər tərəfi beynəlxalq turizm marşrutu üçün hədəfdir. Avropalılar Azərbaycan təbiətinin gözəllikləri ilə birgə zəngin tarixi izləri yaşadan yerlərə səyahəti xoşlayırlar. İstət-istəməz bu yerlərin təbii gözəllikləri onların zövqünü oxşayır. Çünki, Avropanın təbiətini xatırladır. Adam özününkünə bənzəri özgə yerdə görəndə də mənən dincəlir. Asiyadan gələn qonaqlarımız, yandırıcı Ərəb səhrasından keçib gələnlər hələ bölgələrə getməmiş Bakı bulvarını, yaşıllıqlara bürünmüş istirahət mərkəzlərini görəndə buranı həqiqətən cənnət kimi qavrayırlar. Və heyranlıqlarını gizlətmirlər. Eləcə də ayrı-ayrı bölgələrimiz Asiyalı qonaqlarımızı həm də əsrarəngiz yaşıllıqlara görə cəlb edir. Demək, Bakının səmadan görüntüsündə onun gözdən-nəzərdən qıraq ayrı-ayrı məhəllələrinin də yaşıllıqları xüsusi əhəmiyyət kəsb edir, strateji mahiyyət daşıyır. Bu gün Bakı dünya səyahətçiləri üçün açıq şəhərdir. Bakıya gəzməyə, Bakını görməyə gələnlər, lap elə dünyanı səyahət edənlərin yolu Bakıdan keçirsə, onlar Bakının hər hansı bir tərəfini görmək istəyirsə bunu təbii qarşılamalıyıq. Demək, Bakının ayrı-ayrı məhəllələrini də onun mərkəzi kimi diqqətdə saxlamalıyıq. Yuxarıda qeyd etdiyim kimi, deputat seçildiyim Xətai rayonundan olan seçicilərim də məhəllə yaşıllıqlarının taleyi ilə bağlı tez-tez müraciətlər edirlər. Həqiqətən insanlar yaşıllıqları qorumağa meyillidirlər. Sadəcə onlara stimul vermək, lazım olan köməyi göstərmək, deyərdim ki, çox vacibdir.




Uzun illər bundan əvvəl mətbuatda mənim "Mənəviyyatın ekologiyası" adlı məqaləm dərc olunmuşdu. Həmin məqaləni "Kredo" qəzetindən oxuyan Azərbaycan ziyalıları gözləmədiyim səviyyədə əks-səda verdilər. Doğrudur, həmin məqalədə mən mənəvi mühitin ekologiyasından danışırdım. Amma indi Azərbaycan təbiətindən, xüsusi ilə Bakının yaşıl həyatının ekologiyasından danışıram. Ayrı-ayrı bölgələrdə vəhşi heyvanların kəndlərə, insanların sıx yaşadığı yerlərə müdaxiləsindən xəbərlər eşidirik. Gərək anlayaq ki, əvvəlcə biz onların yaşayış yerlərinə müdaxilə eləmişik. Onların rahatlığını pozmuşuq. Bir növ təbiət vəhşilərin hərəkəti ilə üzümüzə qayıdır...



Qayıdıram bir də Bakıya. Əgər Bakının bütövlükdə yaşıl həyatına diqqət göstərməsək, onda nə yeni parklar, nə də sözün həqiqi mənasında dünya təbii-mədəni irsinin incilərindən sayıla biləcək bulvarımız tələbatımızı ödəməyəcək.

Çıxış yolu... Su, su və yenə də su. Biz Bakı yaşıllıqları üçün suyu əsirgəməməliyik.

Dünyanın müxtəlif şəhərlərinə yolumuz düşür. Avropanı demirəm, az-çox inkişaf etmiş Şərq şəhərlərində də bir növ diqqətdən kənardakı məhəllələrin yaşıllıq yerlərindən su mənbələrinin olduğunu görmüşük. Mən deyə bilmərəm ki, həmin ölkələrdə, şəhərlərdə həmin su hansı vəsait bahasına verilir? Ancaq düşünürəm ki, bizim Bakımızın məhəllələrindəki yaşıllıqları qorumaq imkanımız var və bunun üçün mütləq müvafiq tədbirlər görülməlidir.

Müşahidələrim var; ayrı-ayrı məhəllələrdə su olsa, əraziyə diqqət göstərən adamlar özləri meydana çıxır. Lap elə bu olmasın, müvafiq ərazinin müvafiq, cavabdeh idarənin şəxsləri bu gün diqqətdən kənarda qalmış və məhvə məhkum olan yaşıllıq ərazilərinə qayğı göstərə bilərlər.

Burada məni narahat edən bir məqama da diqqəti cəlb etmək istəyirəm; bir vaxt Bakı şəhərinə xaricdən müxtəlif növ qiymətli ağaclar gətirdilər. Məlum oldu ki, onların bir çoxu Abşeron mühitində yaşaya bilmir. Heç iki dərəcə şaxtaya da dözümü olmayan ağaclara baxanda necə təəssüf hissi keçirməmək olar? İki-üç il bundan əvvəl həmin ağaclar təbiətin «soyqırımına» necə məruz qaldı, bu, hər birimizin yadındadır. Demək, Abşeron mühitində özünü sınamış, yaşarılıq imkanı olan ağaclar ən üstün yaşıllıq vasitəsi olaraq mütləq diqqətdə saxlanılmalıdır. Bakı parklarında müvafiq yerlərə və Bakı ətrafı ərazilərdə yaşıllığa ehtiyac duyulan boşluqlarda zeytun ağacları bundan sonra da niyə əkilməsin? Halbuki, bizim Bakı əhli zeytunun mənəviyyətini, dəyərini artıq qədərincə bilməkdədir.

Yeri gəlmişkən, onu da deyim ki, Bakıdan ətraflara çıxış yolları boyu zeytun ağaclarının yaşıllıq zolaqları kimi salınması təkcə ekologiyamız üçün yox, həm də maddi dəyər üçün əhəmiyyətlidir. Zeytun Abşeron mühitinin ekoloji simasında əsas göstərici ola bilər.

Yenidən qayıdıram sözümün əvvəlindəki mətləbə. Yaşıllıqlara qayğı strateji məsələdir. Və bu yöndə Bakı məhəllələrinin yaşıllıqlarının qorunması da bu strateji əhəmiyyəti olan işin ən vacib hissələrindən biridir.

Əgər istəmiriksə, təbiət bizi qum küləklərinin qabağına alsın, onda gərək vacib olan səxavəti də əsirgəməyək.

Sözümün yekununda bir məqama da diqqəti çəkmək istərdim. Müxtəlif səbəblərdən incik düşən adamlar xarici ölkələrdə kimlərinsə qoltuğuna sığınıb onların istəklərinə uyğun Bakı haqqında xoşagəlməz, ürəkbulandıran rəylər də söyləməkdən çəkinmirlər. Biz yaratdığımız Bakını özünün yaşıl donunda indiki gözəllik görkəmində təqdim etməyi bacarmalıyıq. Əgər belə demək mümkünsə, xaricdən gələn hər hansı bir qonağımızı da Bakıdan gözdən, nəzərdən uzaq hər hansı bir məhəlləsinə sıxılmadan, çəkinmədən dəvət edə bilməliyik.

Deyərlər ki, «gözəllik ondur, doqquzu dondur». Bakının gözəllik donunun əsas rəngi onun yaşıllığıdır. Biz isə Bakı təbiətinin yaşıllığını qorumalıyıq.

*23.09.2019*